AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTE

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ

# "MULTİKULTURALİZM KONSEPSİYASININ SOSİAL-FƏLSƏFİ VƏ MƏDƏNİ ƏSASLARI" mövzusunda respublika elmi-nəzəri konfransın

# MATERİALLARI




BAKI 2016

MÜNDƏRİCAT

Rüstəm Ələkbərov (Rudolf Gill), Mariya Hüseynova – Atanasova
НАЦИОНАЛЬНЫЕ МЕНЬШИНСТВА ИМЕЮТ РАВНЫЕ ПРАВА С ТИТУЛЬНОЙ НАЦИЕЙ ........ 13
Valentina Georgiyevna Əfəndiyeva, Məryəm Əlizadə
AZƏRBAYCAN TEATRI VƏ MULTIKULTURALIZM ........ 17
I BÖLMƏ. MULTİKULTURALİZM VƏ MƏDƏNİ ÖZÜNÜDƏRK ........
Robert Mobili
УДИНЫ И АЗЕРБАЙДЖАНСКИЙ МУЛЬТИКУЛЬТУРАЛИЗМ ........
Niyazi Mehdi
MULTİKÜLTÜR FORUMU HAQQINDA TƏƏSSÜRATLAR ........ 25
Əlikram Tağıyev
MULTİKULTURALİZM VƏ MƏDƏNİYYƏTLƏRİN DİALOQU: İDEYALAR VƏ İSTİQAMƏTLƏR ........ 27
Sədaqət Əliyeva
AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ QADIN FENOMENİNİN MƏDƏNİ MÜXTƏLİFLİYİ ........ 30
Tamilla Əhmədova
ПРОБЛЕМА НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФИИ КУЛЬТУРЫ ........ 34
Aydın Dadaşov
AZƏRBAYCAN KİNOSUNDA MULTİKULTURALİZM ........ 37
Leylaxanım Atakişiyeva
MƏDƏNİYYƏTLƏRİN RƏNGARƏNGLİYİNİN MORFOLOJİ TƏHLİLİ ........ 48
Aygün Eyvazlı
MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİNİN TƏDQİQİ VƏ TƏDRİSİ MƏSƏLƏLƏRİ ........ 53
İlqar Hüseynov
MÜASİR DÖVRDƏ MUZEYLƏRƏ MULTİKULTUROLOJİ BAXIŞ ........ 53
Yeganə Eyvazova
"ABİDƏ" ANLAYIŞINA MULTİKULTURAL KONTEKSTDƏN YANAŞMA ........ 58
Sima Babayeva
РОЛЬ НЕМЦЕВ В РАЗВИТИИ ВИНОДЕЛИЯ В АЗЕРБАЙДЖАНЕ ........ 62
Sevinc Şahhüseynova
AZƏRBAYCANDA MULTİKULTURAL MEMARLIQ ........ 66
Elfira Məlikova-Qurbanova
НАЧАЛО И РАЗВИТИЕ МУЛЬТИКУЛЬТУРАЛЬНОГО ОБЩЕСТВА АЗЕРБАЙДЖАНА В СФЕРЕ НАУКИ И КУЛЬТУРЫ В XX ВЕКЕ ........ 69
İlhamə Səfərova
MULTİKULTURAL CƏMİYYƏTDƏ MUZEYLƏRİN MİSSİYASI ........ 71
Afət Allahverdiyeva
MULTİKULTURAL DƏYƏRLƏRİN TƏBLİĞİNDƏ EKSKURSİYALARIN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ ........ 74
Gülçin Kazımi
MULTİKULTURALİZM VƏ MƏDƏNİ ÖZÜNÜDƏRK ........ 77
Gülşən Həsənova
AUDİTORİYADAN KƏNAR TƏDBİRLƏRDƏ HUMANİSTLƏŞMƏ MƏDƏNİ ÖZÜNÜDƏRK VƏ KREATİV TƏFƏKKÜR ........ 81
Adil Abdullayev
YAZILI ABİDƏLƏRİMİZDƏ MULTİKULTURAL DƏYƏRLƏR ........ 84
İradə Rəsuli
MULTİKULTURALİZM KİTABXANA - İNFORMASİYA XİDMƏTİNDƏ ........ 87
Eldəniz Məmmədov
MÜASİR MULTİKULTURAL SİVİLİZASİYANIN İNFORMASİYA ƏSASI KİMİ «SƏNƏD – İNFORMASİYA ELMLƏRİ» ANLAYIŞININ ŞƏRHİ ........ 91
Kəmalə Məmmədova
MƏDƏNİ MÜXTƏLİFLİYİN QORUNUB SAXLANMASINDA KİTABXANALARIN ROLU ........ 94

İsmayıl Ələkbərov
AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİNDƏ TOLERANTLIQ VƏ MULTİKULTURALİZM : NƏŞR OLUNMUŞ KİTABLAR HAQQINDA ........ 98
Tamilla Əsgərova
MULTİKULTURALİZM ÜZRƏ KİTAB FONDUNUN YARADILMASI (ADMIU-NUN KİTABXANASI NÜMUNƏSİNDƏ) ........ 102
Töhfə Əzimova
AZƏRBAYCAN MULTİKULTURAL TOLERANTLIĞININ İNTERNET RESURSLARDA VƏ SOSİAL ŞƏBƏKƏLƏRDƏ TƏBLİĞİ ........ 106
Fərqanə Hüseynova
MƏDƏNİYYƏTLƏRİN BİR-BİRİNƏ YAXINLAŞMASI VƏ QARŞILIQLI FƏALİYYƏTİNDƏ MİLLİ- MƏDƏNİ İRSİN QORUNMASI PROBLEMİ ........ 109
Elnurə Kazımzadə
MULTİKULTURAL MƏDƏNİYYƏTLƏRİN TƏBLİĞİNDƏ ALBAN MƏBƏDİNİN ROLU ........ 114
Nərminə Abdullayeva
MULTİKULTURALİZMİN TƏBLİĞİNDƏ KİTABXANALARIN ROLU ........ 118
İlahə Sadıqova
AZƏRBAYCANDA MULTİKULTURALİZM - QARIŞIQ NİKAHLAR ........ 121
Günel Seyidəhmədli
QƏBİRÜSTÜ ABİDƏLƏRDƏ MULTİKULTURAL ƏNƏNƏLƏR ........ 124
Bəhruz Niftəliyev
AZƏRBAYCAN TELEVİZİYALARINDA MULTİKULTURALİZM VƏ CƏMİYYƏT ........ 128
Nərmin Tağıyeva
MULTİKULTURALİZM ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ ........ 131
Səidə Baxşıyeva
ЭЛЕМЕНТЫ КАРНАВАЛА В МУЛЬТИКУЛЬТУРАЛЬНОМ ОБЩЕСТВ ........ 136
Günel Baxışova
MULTİKULTURALİZM VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI ........ 138
Afət Məmmədova
MÜASİR AZƏRBAYCANDA MULTİKULTURAL CƏMİYYƏT ........ 144
Fatma Qəniyeva
MULTİKULTURAL DƏYƏRLƏRİ MƏDƏNİYYƏTLƏRİN İNKİŞAFINA TƏSİRİ ........ 146
II BÖLMƏ. ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏTDƏ MULTİKULTURALİZM ƏNƏNƏLƏR ........ 150
Teymur Kərimli
NİZAMİ GƏNCƏVİ VƏ ƏBDÜRRƏHMAN CAMİ ........ 150
Aybəniz Əliyeva-Kəngərli
MULTİKULTURALİZM - ƏDƏBİ QAYƏDƏN DÖVLƏT MODELİNƏ ........ 152
Paşa Kərimov, İbrahim Quliyev
AZƏRBAYCAN ƏDƏBİ-BƏDİİ FİKRİNDƏ MULTİKULTURAL DƏYƏRLƏRİN YERİ ........ 155
Gülbəniz Babaxanlı
HÜSEYN CAVİD DRAMATURGİYASINDA MULTİKULTURALİZM ƏNƏNƏLƏRİ ........ 160
Yaşar Qasımbəyli
FİKRƏT QOCA POEZİYASINDA MULTİKULTURAL DƏYƏRLƏR ........ 164
Gülşən Əliyeva-Kəngərli
MULTİKULTURALİZM – TÜRKÜN VƏTƏN ƏXLAQI MƏDƏNİYYƏTİ ........ 169
Tahirə Həsənzadə
XIX ƏSR QACARLAR NƏSLİNİN İKİ ZİYALISI BAKI ŞƏHƏRİ HAQQINDA ........ 173
Əzizağa Nəcəfzadə, Əkrəm Həsənov
SEYİD ƏBÜL QASIM NƏBATİ YARADICILIĞINDA MULTİKULTURAL DƏYƏRLƏR ........ 176
Kamandar Şərifov
MƏHƏBBƏT DASTANLARINDA MULTİKULTURAL DƏYƏRLƏR ........ 179
Azadə Musayeva
MULTİKULTURAL DƏYƏRLƏRİ ƏKS ETDİRƏN DÖRD MƏSNƏVİNİN ƏL YAZMASI ........ 183

Dilarə Müzəffərli
XX ƏSRİN II YARISI AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ
MULTİKULTURAL VƏ TOLERANT DƏYƏRLƏRİN BƏDİİ ƏKSİ ........ 187
Gülnarə Hüseynova
TOLERANTLIĞIN , MULTİKULTURAL ƏNƏNƏLƏRİN MƏKANI
AZƏRBAYCAN ........ 191
Əminə Qədimova
"KİTABİ-DƏDƏ QORQUD" DASTANLARINDA ETNİK - PSİXOLOJİ
MƏSƏLƏLƏR ........ 195
Teyfə Hüseynova
ERKƏN XALQ TAMAŞALARI QAYNAQLARINDA MULTİKULTURALİZM ........ 199
Nailə Səmədova
YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ PUBLİSİSTİKASINDA
MULTİKULTURAL DƏYƏRLƏR ........ 203
Samirə Rzayeva
HUMANİST İDEYALARIN BƏDİİ-VİZUAL HƏLLİ
(Qarabağ müharibəsi mövzusunda çəkilmiş filmlər əsasında) ........ 205
Natiq Mürsəlov
MULTİKULTURAL İRSİN MÜHAFİZƏSİNDƏ AMEA HÜSEYN
CAVİDİN EV MUZEYİNİN ROLU ........ 212
Fidan Abdurahmanova
MƏDƏNİYYƏTLƏR ARASI DİALOQ VƏ QLOBAL İNTEQRASİYA
PROSESİNDƏ BƏDİİ TƏRCÜMƏNİN TƏSİRİ ........ 216
III BÖLMƏ TARİX , SOSİAL VƏ İQTİSADİ MÜHİTDƏ MULTİKULTURALİZM
İDEYALARI ........ 221
Rəna Məmmədova
ИДЕЯ РЕЛИГИОЗНОГО УНИВЕРСАЛИЗМА НАДИР ШАХА АФШАРА ........ 221
Xaladdin Sofiyev
DEMOKRATİK CƏMİYYƏTİN ƏSAS PRİNSİPLƏRİ ; TOLERANTLIQ
VƏ PLÜRALİZM ........ 223
Hafiz Hüseynov
CƏMİYYƏTİN SOSİAL STRUKTURUNDA ETNİK-MƏDƏNİ
MÜXTƏLİFLİYİN ROLU ........ 229
Ədalət Abdiyeva
AZƏRBAYCANDA MULTİKULTURALİZM SİYASƏTİNİN
PRİORİTET İSTİQAMƏTLƏRİ ........ 231
Rima Qafarzadə
ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MULTİKULTURAL
DƏYƏRLƏRİN FORMALAŞDIRILMASI HAQQINDA ........ 235
Şükufə Cabbarova
МУЛЬТИКУЛЬТУРАЛИЗМ - ГОСУДАРСТВЕННАЯ
ПОЛИТИКА В АЗЕРБАЙДЖАНЕ ........ 238
Şəlalə Bağırova
XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ AZƏRBAYCANDA DÖVLƏT
VƏ DİN MÜNASİBƏTLƏRİ ........ 241
Namiq Abbasov
AZƏRBAYCAN TOLERANTLIĞI VƏ MULTİKULTURALİZMİ
DÖVLƏT SİYASƏTİNİN ƏSASI KİMİ ........ 245
Məleykə Həsənova
ÇOX MƏDƏNİYYƏTLİ CƏMİYYƏTİN MÜASİR İQTİSADİ
İNKİŞAF MEYLLƏRİ ........ 249
Azər Pənahov
AZƏRBAYCANDA TURİZMİN SOSİAL - İQTİSADİ İNKİŞAF
İSTİQAMƏTLƏRİ VƏ MULTİKULTURAL DƏYƏRLƏRİN TƏBLİĞİ ........ 253
Kəmalə İsmayılova
КУЛЬТУРНО - ИСТОРИЧЕСКИЕ И ИДЕОЛОГИЧЕСКИЕ
КОРНИ РЕЛИГИОЗНЫХ ВОЗЗРЕНИЙ
ЮЖНОГО АЗЕРБАЙДЖАНА (от зороастризма к бахаизму) ........ 256
Nigar Hüseynova
MİLLİ MƏDƏNİYYƏTLƏRİN SOSİAL-FƏLSƏFİ ASPEKTDƏ TƏHLİLİ ........ 259
Saleh Vəliyev
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏTİMİZİN BEYNƏLXALQ ALƏMDƏKİ NÜFUZU ........ 264

Sevinc Əskərova
MÜASİR DÖVRDƏ AVROPADA MULTİKULTURALİZM VƏ İMMİQRANTLAR ........ 272
Rahim Həsənov
POLİETNİK VƏ POLİKONFESSİONAL CƏMİYYƏTLƏRDƏ
MULTİKULTURALİZMUNİVERSAL DƏYƏRLƏR SİSTEMİ PRİNSİPİ KİMİ ........ 277
Pərvin Əsgərova, Hökümə Hacıyeva
ABŞ SİYASƏTİNDƏ MƏDƏNİ AMİLLƏR ........ 282
Leyla Qurbanova
MULTİKULTURALİZM VƏTƏNDAŞ CƏMİYYƏTİNİN ƏSAS XÜSUSİYYƏTİ KİMİ ........ 286
Cəmilə Əliyeva
TOLERANTLIQ VƏ GƏNC NƏSLİN İNKİŞAFI PROBLEMLƏRİ ........ 288
Nigar Rəhimova
ÇOX MƏDƏNİYYƏTLİ CƏMİYYƏTDƏ SOSİAL İNKİŞAFIN MÜASİR VƏZİYYƏTİ ........ 290
Könül Mustafayeva
MULTİKULTURAL CƏMİYYƏTDƏ ELEKTRON XİDMƏTLƏRDƏN
İSTİFADƏNİN PROBLEMLƏRİ ........ 292
Tünzalə Babayeva
MULTİKULTURALİZM DƏYƏRLƏRİNƏ EKOLOJİ ASPEKTDƏN YANAŞMA ........ 294
Jalə Əsədova
BAKI PROSESİ VƏ ONUN MULTİKULTURAL ƏHƏMİYYƏTİ ........ 298

*Çapa imzalanıb : 01.12.2016,Kağız formatı : 60-84 1/16*
*Həcmi : 19 ç/v, Tiraj : 75*
*"Marif" nəşriyyatı*

**Мултикультурализм в библиотечно-информационной деятельности**
**Резюме**

***Ключевые слова*** *- Азербайджанский мултикультурализм, этно-культура, идентичность.*
Статья расматривает вопросы мултикультурализма в Азербайджане и возможности библиотечно-информационной деятельности в сфере пропаганды мультикультуральныхценностей.

**Multiculturalism in the library and information activity**
**Summary**

***Keywords*** *- Azerbaijan multiculturalism, ethno-culture and identity.*
Article are risen issues of multiculturalism in Azerbaijan and possibilities of library and information activities in the field of multikulturalnyhtsennostey propaganda.

**Eldəniz Məmmədov**
*BDU və ADMİU-nun müəllimi*
*eldaniz@hotmail.com*

## MÜASİR MULTİKULTURAL SİVİLİZASİYANIN İNFORMASİYA ƏSASI KİMİ «SƏNƏD-İNFORMASİYA ELMLƏRİ» ANLAYIŞININ ŞƏRHİ

***Açar sözlər:*** *Azərbaycan multikulturalizmi, Arxivşünaslıq, Biblioqrafiyaşünaslıq, İnformasiya cəmiyyəti, Kitabxanaşünaslıq, Kitabşünaslıq, Multikulturalizm, Muzeyşünaslıq, Sənəd-informasiya elmləri, Sənədşünaslıq.*

Məqalədə Azərbaycan Respublikasında informasiya cəmiyyətinin mədəni inkişafı fonunda «Sənəd-informasiya elmləri» anlayışı və onun müəyyən edilmiş struktur quruluşu elmi müstəviyə gətirilərək müasir multikultural sivilizasiyanın informasiya əsası kimi şərh olunur.

Qədim dövrlərdə belə bir deyim formalaşmışdır: «Müəllim belə deyib» (lat. magister dixit). Nüfuzlu mütəfəkkirlərin fikrincə, bu deyimin mənası bunu ifadə edir: «..."Müəllim belə deyib" fikri o demək deyil ki, bu həmişə belə olacaq. Şagird onun üçündür ki, bu fikri inkişaf etdirsin. Yəni müəllim belə deyib və mənə belə gəlir ki, bu fikrin davamı, məhz davamı... Yəni şagird müəllimin davamıdır...».

Belə nüfuzlu mütəfəkkirlərdən biri, Azərbaycanın görkəmli ziyalısı, dünya şöhrətli alim, akademik Azad Xəlil oğlu Mirzəcanzadə (1928-2006) öz çıxışlarının birində (Neft daşları, 4 fevral 1999-cu il) belə qeyd edir: «...Siz sivilizasiyalı dünyaya üz tutursunuz. Ancaq informasiya əsası olmayan sivilizasiyalı dünya olmur. Harada ki, informasiya yoxdur, orada sivilizasiya da mövcud ola bilməz. Bizə informasiya mütəxəssisləri lazımdır...». Bu fikrin söylənildiyi tarixdən 17 il ötməsinə baxmayaraq, nəticə etibarı ilə gələcəyə edilmiş bu cür elmi baxış özünü doğrultmuşdur.

Hazırda informasiya cəmiyyətinə qədəm qoyulmuşdur. İnformasiya cəmiyyəti elə bir cəmiyyətdir ki, artıq burada insan fəaliyyətinin bütün sahələrinə informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiq olunması labüd sayılır.

Respublikamızda informasiya cəmiyyətinə keçid dövründə görülən işlərin məntiqi nəticəsi kimi, Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli, 1146 №-li sərəncamı ilə qəbul və təsdiq edilmiş «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003 - 2012-ci illər)» və həmin istiqamətdəki layihələr çox böyük əhəmiyyətə malikdir. Milli strategiyada insan fəaliyyətinin bütün sahələrində inkişaf üçün əlverişli şərait yaradılması istiqamətləri əks olunmuşdur. Bu məqsədlərə çatmaq üçün informasiya strukturlarını gücləndirilmək, müvafiq hüquqi baza yaratmaq, İKT sahəsində elmin daha geniş istifadə olunmasına yardım göstərmək, müxtəlif xarakterli və səviyyəli informasiya ehtiyatları, informasiya mərkəzləri yaratmaq və sairə tələb olunurdu. Fikrimcə, çətinliklə də olsa, bütün bu məsələlər öz həllini tapmışdır.

Təsadüfi deyil ki, 10-12 dekabr 2003-cü ildə Cenevrə şəhərində keçirilmiş «İnformasiya Cəmiyyəti üzrə Dünya Sammiti»ndə yeni minilliyin bəyannaməsinin prinsiplərində nəzərdə tutulmuş məqsədlərə çatmaq üçün informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edilməsi əsas vəzifə olaraq qəbul olunmuşdur. Bu sammitin fəaliyyət planında qeyd olunmuş və diqqəti cəlb edən aşağıdakı bir neçə məsələni nəzərinizə çatdırmaq istərdim:

«Savadsızlıqla əlaqədar problemlərin asan həll olunması məqsədilə bu kateqoriyaya aid olan insanlara informasiya-kommunikasiya texnologiyalarından istifadəni asanlaşdırmaq üçün qiymət nöqteyi-nəzərdən sərfəli texnologiyalar və mətnsiz kompüter interfeysləri işlənilməlidir» (C2 bölməsi, 9/g bəndi).

«Milli elektron strategiyalar çərçivəsində əlillərin, məhdud imkanlı şəxslərin, uşaqların, həmçinin əqli və fiziki cəhətdən zəif insan qruplarının informasiya cəmiyyətinin tam hüquqlu üzvü olmasını və onların bu istiqamətdə tələbatlarının ödənilməsi üçün kompleks tədbirlər nəzərdə tutulmalıdır» (C 2 bölməsi, 9/e bəndi).

«Elmi fəaliyyət həyata keçirərkən informasiya texnologiyaları əsasında elektron nəşr üzrə təşəbbüslər həvəsləndirilməlidir» (C 7 bölməsi, 22/b bəndi).

Qeyd olunan bu məsələlərdən aydın olur ki, informasiya cəmiyyətinin əsas məqsədi milli mənsubiyyətindən, cinsindən, sosial-iqtisadi statusundan asılı olmayaraq cəmiyyətin bütün üzvlərinin həqiqi mənada sivilizasiyanın mədəni quruculuğunda, idarəetmədə iştirakının təmin olunmasıdır. Məhz ona görə də, bu prosesin müvəffəqiyyətliliyi üçün lazımi resurslardan düzgün istifadə etmək, yerinə yetirilən bütün işləri koordinasiya etmək və tənzimləmək, meydana çıxan operativ vəzifələri müəyyənləşdirmək və həll etmək olduqca vacibdir. Çünki İKT-nin tətbiqi dövlət və ictimai özünüidarəetmənin demokratikliyini inkişaf etdirmək üçün çox mühümdür. Ona görə də İKT-nin tətbiqi ilə əlaqədar yeni fəaliyyət istiqamətlərinə elmin və təhsilin təkmilləşdirilməsi, kadr hazırlığı, çağdaş dövrə uyğun minimal savadlılığının təmin olunması, sosial yönümlü sahələrin, ictimai əlaqə infrastrukturunun inkişafı, bütün bunlara hüquqi-normativ bazanın yaradılması, elektron hökumətin, elektron iqtisadiyyatın formalaşdırılması, inkişaf etdirilməsi və digər məsələlər aid edilir.

İnformasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, hal-hazırkı dövrdə elmlərin təsnifatına dair irəli sürülən fikirlər də müxtəlifdir. Belə ki, bəzi beynəlxalq qurumların (UNESCO, İSESCO və s.) elm və bilik sahələrinə dair ümumi siyahısında verilən bir sıra ixtisasların müasir dövrdə kəsb etdiyi yeni mənaları ilə əlaqədar müxtəlif tənqidi fikirlər mövcuddur. Bu baxımdan, dünya praktikasında geniş yayılmış təsnifat (Melvil Düinin Onluq Təsnifatı, Konqres kitabxanasının təsnifatı və s.) sistemlərində də köhnəlmiş, düzgün elmi baxışı əks etdirməyən bəzi elm və bilik sahələrinin adlarına yenidən nəzər salınması olduqca vacibdir. Məsələn: «Kitabxana və informasiya elmləri» (ing. Library and information science). Fikrimcə, hər hansı elmi bilik sahəsinə müvafiq ad verildikdə və onları müxtəlif xarici dillərə tərcümə etdikdə bu sahənin mütəxəssisləri ilə məsləhətləşmək daha düzgün olardı. Belə ki, «kitabxana» elm deyil, o cəmiyyətin yaratdığı sosial müəssisə və «Kitabxanaşünaslıq» elminin tədqiqat obyektlərindən biridir. Əgər mötəbər və mütəfəkkir elm adamları bu məqaləni oxuyacaqsa, «Kitabxana və informasiya elmləri» anlayışının «Sənəd-informasiya elmləri» (rus. Документно-информационные науки; ing. Document and information sciences) kimi adlandırılması təklifini irəli sürürəm. Və «Sənəd-informasiya elmləri» strukturuna daxil olacaq elmi bilik sahələrinin belə müəyyən olunmasını tövsiyə edirəm:

1.Kitabxanaşünaslıq; 2.Biblioqrafiyaşünaslıq; 3.Kitabşünaslıq; 4.Muzeyşünaslıq; 5.Arxivşünaslıq; 6. Sənədşünaslıq.

Yuxarıda göstərilən struktur quruluşa əsaslanaraq bu anlayışın şərhini belə vermək olar: «Sənəd-informasiya elmləri - informasiya daşıyıcısı olan müxtəlif tip və növ sənədləri, bu sənədlərin mühafizəsini, nəsildən-nəslə ötürülməsini, ictimai istifadəsini təmin və təşkil edən sosial institutları, onların fəaliyyətini və bütün bu proseslərin xassələrini, strukturunu, inkişaf qanunauyğunluqlarını öyrənən elmi bilik sahələrinin məcmusudur. Konkret desək, bu sənəd, informasiya və onları mühafizə edən sosial institutları bir vəhdətdə öyrənən elmi biliklərdir».

«Sənəd-informasiya elmləri» anlayışını elmi müstəviyə gətirməkdə əsas məqsədim bu məqalənin başlanğıcında böyük Azərbaycanlı mütəfəkkir, akademik A.X.Mirzəcanzadənin söylədiyi «...informasiya əsası olmayan sivilizasiyalı dünya olmur...» fikrini inkişaf etdirməkdir. Bəli, bu bir həqiqətdir ki, bu gün milyonlarla ziyalının yetişməsində məhz «Sənəd-informasiya elmləri»nin (kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, muzeyşünaslıq, arxivşünaslıq və sənədşünaslıq) tədqiqat obyektlərinin (kitabxanaların, muzeylərin, arxivlərin, ümumilikdə sənəd-informasiya resurslarının) müstəsna rolu vardır. Məhz bu səbəbdən «Sənəd-informasiya elmləri» strukturuna daxil olan elmi bilik sahələrinin tədqiqat obyektləri sivilizasiyanın informasiya əsasını – bazisini təşkil edir. Yeganə bir misal bu qeyd olunanların bariz isbatı ola bilər. Belə ki, hər bir dövrün ən müasir kitabı (o nöqteyi-nəzərdən ki, bu kitabda əks olunmuş informasiyalar heç zaman öz aktuallığını itirmir, yəni köhnəlmir) sayılan «Qurani-Kərim» məhz «Sənəd-informasiya elmləri»nin tərkib hissəsi sayılan, cəmiyyətdə əlyazma və nəşr əsərlərinin yaranması, yayılması və onlardan ictimai istifadə proseslərini öyrənən, kitab və kitabçılıq işi haqqında elmin – kitabşünaslığın (həmçinin nəsildən-nəslə çatdırılması, qorunub-saxlanılması və özündə sivilizasiya haqqında əks etdirdiyi dəyərli informasiyaların təhlili baxımından, qismən kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, muzeyşünaslığın, o cümlədən sənədşünaslığın) tədqiqat obyektlərindən biridir.

Bu gün müasir sivilizasiyanın informasiya əsasını təşkil edən «Sənəd-informasiya elmləri» bizə böyük rəvac verir ki, tarix boyu elmi, görkəmli alim, mütəfəkkir, dövlət və siyasi xadimləri, o cümlədən beynəlmiləlçiliyi və tolerantlığı ilə seçilən Azərbaycan müasir mərhələdə müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan statusunu daşısın. Bu gün Qoca Şərqin qapısı sayılan Azərbaycan sürətlə planetimizin mədəni həyatının mərkəzinə çevrilməkdədir. Belə bir qəti qənaətə gəlməyə tam əsas vardır. Ən azı ona görə ki, Azərbaycan Prezident İlham Əliyevin təşəbbüsü və bilavasitə təşkilatçılığı ilə 2010-cu ilin aprelin 7-dən 9-dək Bakının «Gülüstan» sarayında keçirilmiş «I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu» UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və ISESCO kimi nüfuzlu qurumların dəstəklədikləri təşəbbüs və dünyada bu istiqamətdə reallaşan ilk mötəbər tədbir olmuş və bu foruma qatılmış dünyanın beş qitəsindən müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri Azərbaycanın bəşər mədəniyyətinə verdiyi töhfələrdən danışmışlar.

Bu istiqamətdə atılan növbəti bir addım Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin 15 may 2014-cü il tarixli «Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında» Fərmanı olmuşdur. Bu fərmanın qəbul edilməsini zəruri edən şərt o idi ki, artıq Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətə çevrilmişdi və həmin irsin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini labüd edirdi.

Azərbaycanda multikultural mühitə olan münasibətin real ifadəsidir ki, 2016-cı ilin yanvarın 11-də Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilməsi haqqında ölkə prezidenti Sərəncam imzalamışdır. Bundan savayı, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq cari ilin martın 11-də təsdiqlənən «Tədbirlər Planı»nda «Azərbaycan multikulturalizmi» elektron kitabxanasının və veb saytının yaradılmasının Prezident Kitabxanasına həvalə olunması bir daha onu təsdiq edir ki, müasir informasiya cəmiyyətində «Sənəd-informasiya elmləri» strukturuna daxil olan elmi bilik sahələrinin tədqiqat obyektləri multikultural sivilizasiyanın informasiya əsasını təşkil edir.

**Ədəbiyyat:**

1. «Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 yanvar 2014-cü il //Azərbaycan, 2014, 19 yanvar, S. 3.
2. «Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 may 2014-cü il //Azərbaycan, 2014, 16 may, S. 1.

3. «2016-cı ilin Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11 yanvar 2016-cı il //Azərbaycan, 2016, 12 yanvar, S. 6.
4. «2016-cı ilin Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilməsinə dair «Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11 mart 2016-cı il //Azərbaycan, 2016, 12 mart, S. 2.
5. Xəlilov S. Elmşünaslığa giriş. Bakı: Çaşıoğlu, 2010, 446 səh.
6. Azad Mirzəcanzadə [Videofilm] / Müəllif: Rafiq Həşimov. «XX əsr». Ondördüncü fəsil. Bakı: Azərbaycan televiziyası, 1999.

**Мамедов Э.Э.**
**Преподаватель БГУ и АГУКИ**

**Трактовка понятия «документно-информационные науки» как информационная основа современной мультикультурной цивилизации**
**Резюме**

***Ключевые слова:*** *Азербайджанский мультикультурализм, Архивоведение, Библиографоведение, Библиотековедения, Документоведение, Документно-информационные науки, Информационное общество, Книговедение, Мультикультурализм, Музееведение.*

В статье на фоне культурного развития информационного общества в Азербайджанской республике в научной плоскости раскрывается понятие «Документно-информационные науки" и ее сложившаяся структура как информационная основа современной мультикультурной цивилизации.

**Mammadov E.E.**
*A teacher of the BSU and ASUCA*
*eldamiz@hotmail.com*

**İnterpretation of the concept «document and information sciences» as an information basis of the modern multicultural civilization**
**Summary**

***Keywords:*** *Azerbaijani multiculturalism, Archival science, Bibliography science, Bibliology, Documentation science, Document and information sciences, Information society, Library science, Multiculturalism, Museology.*

In this article the concept of "Document and information sciences" and its current structure as an information basis of modern multicultural civilization are scientifically explaned with the cultural background of the information society of the Azerbaijan Republic.

**Kəmalə Məmmədova**
*AMEA Mərkəzi Elmi Kitabxanasında bölmə müdiri,*
*BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*

## MƏDƏNİ MÜXTƏLİFLİYİN QORUNUB SAXLANMASINDA KİTABXANALARIN ROLU

***Açar sözlər:*** *multikulturalizm, milli-mədəni münasibətlər, kitabxana, multikultur kitabxana fəaliyyəti.*

Məqalədə multikultur cəmiyyətdə kitabxana fəaliyyətinin təşkili məsələləri və bu sahədə respublikamızda toplanmış iş təcrübəsi işıqlandırılmışdır.